Mukabele-i bilmisil kaide-i zalimanesi

Bu yazı, Ustad Said Nursi (rahmətullahi aleyh)'in, ***«mukabele-i bi'l-misil kaide-i zalimanesi»*** ifadəsinin və bu ifadənin keçdiyi məktubun şərh və izahı haqqındadır.

"Risale-i Nur'daki şefkat, vicdan hakikat, hak, bizi siyasetten men etmiş [əngəlləmişdir]. **Çünkü mâsumlar belâya düşerler; onlara zulmetmiş oluruz.»**

Bazı zâtlar, bunun izahını istediler. Ben de dedim:

Şimdiki fırtınalı asırda:

~ gaddar medeniyetten neş'et eden [doğan] **hodgâmlık** [eqoistlik]; **ve**

~ asabiyet-i unsuriye [irqçilik] **ve umumî harpten gelen istibdadat-ı askeriye** [əskəri istibdad, təzyiqlər]; **ve**

~ dalâletten çıkan merhametsizlik

cihetinde, öyle bir eşedd-i zulüm [zülmün ən şiddətlisi] **ve eşedd-i istibdadat** [istibdadın ən şiddətlisi] **meydan almış ki:**

~ Ehl-i hak [Allah qatında haqq olana özünü nisbət edənlər], **hakkını kuvvet-i maddiye** [maddi güc] **ile müdafaa etse, ya eşedd-i zulüm** [zülmün ən şiddətlisi] **ile, tarafgirlik bahanesiyle, çok bîçareleri yakacak; o hâlette** [hallarda]**, o da azlem** [çox zalım] **olacak ve mağlûp kalacak. Çünkü, mezkûr** [yuxarıda zikr edilən] **hissiyatla hareket ve taarruz** [hücum] **eden insanlar, bir-iki adamın hatasıyla yirmi otuz adamı, âdi bahanelerle vurur, perişan eder.**

~ Eğer ehl-i hak, hak ve adalet yolunda yalnız vuranı vursa, otuz zayiata mukàbil, yalnız biri kazanır, mağlûp vaziyetinde kalır.

~ Eğer mukabele-i bilmisil kaide-i zâlimânesiyle [misli ilə qarşılıq vermək olan zalım qaydası ilə]**, o ehl-i hak dahi, bir-ikinin hatasıyla yirmi otuz biçareleri ezseler, o vakit, hak namına dehşetli bir haksızlık ederler.**

İşte, Kur›ân›ın emriyle, gayet şiddetle ve nefretle siyasetten ve idareye karışmaktan kaçındığımızın hakikî hikmeti ve sebebi, budur. Yoksa bizde öyle bir hak kuvveti var ki, hakkımızı tam ve mükemmel müdafaa edebilirdik.[1]

.....

Şərhi:

• Birincisi: İslam fəqihlərinin Quran və hədisə istinad edərək etdikləri təsbitə görə, hərb üsulu ilə bağlı bəzi əsasları zikr etməkdə fayda vardır. Belə ki:

a. Fəqihlərin cumhuruna görə, Müsəlmanlar, düşmənin muharib (döyüşən) əsgərlərini və hərbə təşviq edən şəxsləri hədəf alaraq düşmənə hücum etdiklərində, əgər düşmənlər arasında uşaqlar, qadın və yaşlılar da varsa; və bunları bir-birindən ayırmaq da mümkün deyilsə; -onları şəxsən hədəf qoymadan- düşmən tərəfə hücum edərkən, uşaq, qadın və yaşlıların öldürülməsində bir günah yoxdur.

Döyüşə qatılan yaşlılar, qadınlar, uşaqlar və rahibləri öldürməyin caiz olduğu xüsusunda, fiqh kitablarında bu ibarələr mövcuddur:

“Hərbdə iştirak edən yaşlıları, qadınları, uşaqları və rahibləri öldürmək,caizdir.”[2]

Hərb əsnasında kafirlərlə qarşı-qarşıya gəlindiyi vaxt, kafirlər, əgər yaşlı, qadın, uşaq və Müsəlmanların arxasına sığındıqları təqdirdə, əgər

1 (Şualar, 12-ci Şua, s. 255-256)

2 (“əl-Məvsuatu’l-Fiqhiyyə”, 16-cı cild, s. 149)

o kafirləri öldürmək üçün başqa yol yoxdursa; və onlar öldürülmədiyi təqdirdə Müsəlmanların bölünmə, dağılma ehtimalı vardırsa, o vaxt onları öldürmək, 3 məzhəbə (Şafi, Maliki və Hənbəli məzhəblərinə) görə, caizdir. Hənəfi məzhəbinə və Şafi məzhəbinin digər bir görüşünə görə isə, istənilən halda, qeydsiz-şərtsiz sipər qoyulan yuxarıda zikr etdiyimiz insanları öldürmək, caizdir. Bu mövzu ilə bağlı məzhəblərin görüşləri belədir:

~ Hənəfilər belə deyirlər:

"Əgər özlərilə döyüşülən kafirlər içində Müsəlman əsir və ya tacir varsa; və yaxud onlar, Müsəlmanlardan ibarət olan əsirləri və öz uşaqları ilə qorunsalar (yəni bunlara sığınsalar) da, gərək ox, gərəksə də mancınıqla onlara bir şey atmaq və onları öldürmək, caizdir. Bu halda, Müsəlmanların məğlub olma ehtimalı olsun və ya olmasın, istənilən halda, bunlara qarşı ox və ya mancınıqla bir şeylər atıla bilər.

Bu halda Müsəlmanlardan biri ölərsə, bunun nə diyət, nə də kəffarəti vardır.

Lakin 3 imama görə, kafirlər, Müsəlmanların arxasına sığınsalar, əgər o kafirləri öldürmək üçün başqa bir yol yoxdursa və onlar bu şəkildə ikən onlara qarşı döyüşmək mümkün olmazsa və Müsəlmanların dağılma ehtimalı varsa, o vaxt onlarla döyüşülər." [1]

~ Şafilər belə deyirlər:

"Əgər döyüş qızışsa, kafirlər, qadınlar və uşaqlarını sipər edib arxalarına sığınsalar, zərurətdən dolayı onlara ox və silah atmaq, caizdir. Əgər kafirlər, bu uşaqlar və qadınlarla qorunmaq istəsələr və onlarla döyüşməyimiz üçün bir zərurətimiz də yoxdursa, bu halda, onlara qarşı döyüş tərk edilir. Bu görüş, 'əl-Muharrar' sahibinin tərcihidir.

1 ("Fəthu'l-Qadir", 5-ci cild, s. 447)

İkinci görüşə görə, bu atılan oxlar və mancınıqlar, uşaqlara isabət etsin və ya etməsin, zərurət olsun və ya olmasın, caizdir. Çünki bu şəkildə edildiyi təqdirdə, Müsəlmanlar onlarla döyüşməsələr, kafirlər davamlı olaraq bu hiləyə baş vurub döyüşün tətilinə səbəb olarlar. Döyüşün tətili isə, caiz deyildir. 'Ravda'nın görüşü, budur. Bu ikinci görüş, daha qüvvətlidir." [1]

~ Malikilər belə deyirlər:

"Əgər kafirlər, uşaqların və qadınların arxalarına sığınıb qorunsalar, Müsəlmanlara zərər gəlməsindən qorxulmursa, bu halda onlarla döyüşülməz. Əgər Müsəlmanlara zərər gəlməsindən qorxulursa, onlarla həm atəş, həm də su ilə döyüşülə bilər.

Əgər kafirlər, Müsəlmanaları özlərinə sipər edib qorunsalar, onlarla döyüşülər. Ancaq döyüşərkən məqsəd, Müsəlmanları öldürmək olmayacaqdır. Əgər döyüşən Müsəlmanların əksəriyyətinə zərər gəlməsindən qorxulmursa, bu hökm, belədir. Əgər döyüşdə Müsəlmanların arxasına sığınan kafirlərlə döyüşülmədiyi təqdirdə, Müsəlmanların əksəriyyətinə zərər gəlməsindən qorxulursa, döyüşən Müsəlman, istər sırf kafirləri qəsd edərək döyüşsün, istər həm kafirləri, həm də onlara sipər olan Müsəlmanları bərabər qəsd edərək döyüşsün, hər 2 halda da kafirlərlə döyüşmək, caizdir." [2]

~ Hənbəlilərin görüşü isə, belədir:

"Döyüşdə, qadınlar, uşaqlar, dəlilər öldürülməz. Əgər kafirlər, uşaqların və qadınların arxalarına sığınıb onlarla qorunsalar, onlara ox və başqa şeylər atmaq, caizdir. Lakin atan adam, kafirləri qəsd edərək atar. Əgər kafirlər, Müsəlmanların arxasına sığınıb bununla öz-

1 ("Muğni'l-Muhtac", 4-cü cild, s. 296)

2 ("Dusuki maa şərhihi", 2-ci cild, s. 178)

lərini qorusalar, onlara ox və başqa şeylər atmaq, caiz deyildir. Çünki bu, Müsəlmanların ölümünə səbəbdir. Əgər kafirlərlə döyüşmək başqa şəkildə mümkün olmursa, bu halda da (yəni Müsəlmanların arxasına sığınsalar belə), zərurətdən dolayı onlara bir şey atmaq, caizdir. Lakin atarkən, kafirləri qəsd edərək atar."[1]

b. Müsəlmanlarla döyüşməyən və ya döyüş haqqında rəy bəyan etməyən qadın, uşaq, yaşlı və rahiblərin, bidayətən (ən əvvəl) öldürülməsi və onlara müslə edilməsi (yəni gözlərinin çıxarılması, qulaqlarının kəsilməsi, başlarının yarılması), caiz deyildir. Bunlar, döyüşlərdə işlənilməsi haram olan fellərdir. Müsəlmanların ən əvvəl bu haramları işləmələri, caiz deyildir. Kafirlər isə, bu hərbin qadağalarına riayət etmirlər, hərb üsulunda haram olan şeyləri işləyirlər. Üstəlik, bu haramları işləyərkən, mislilə deyil, qat-qat, məsələn, 10, 20, bəlkə 100 mislilə işləyib zülm edirlər. Bunu etmələrindəki əsas məqsəd isə, hərb deyil, Müsəlmanların uşaqlarını öldürməklə onların gözlərini qorxutmaqdır.

c. Əgər kafirlər, bidayətən Müsəlmanların uşaq, qadın və yaşlılarını öldürmək və ya onlara muslə etmək surətilə hərb qadağalarına riayət etməsələr, Müsəlmanların da ***"mukabele-i bi'l-misil"*** (mislilə qarşılıq) verərək onlara muslə etməsi, şəri ruxsat ilə caizdir. Buna, ***"mukabele-i bi'l-misil kaide-i adilanesi"*** (mislilə qarşılıq vermək olan adil qayda) deyilir.

Bəli, ***"mukabele-i bi'l-misil"***, ilərida izah ediləcəyi üzərə, zalımın zülmünə mislilə qarşılıq vermək mənasındadır və bu, şəri ruxsat olaraq caizdir. Düşmən, qeyr-i məşri bir surətdə hərb edər, yəni hərbin hüduduna xələl gətirər və Allahın hərblərdə qadağan etdiyi şeyləri işləyərək həddini aşarsa, bizlər də mislilə qarşılıq verə bilərik. Bu, şəri ruxsat olaraq caizdir.

---

1 (Buhuti, "Kəşşafu'l-Qina", 2-ci cild, s. 378)

Mövzunun daha yaxşı başa düşülə bilməsi üçün, bir neçə misal zikr edəcəyik:

~ **Birinci misal:** Kafirlər, Müsəlmanların muhariblərini (döyüşənlərini) deyil, şəxsən onların uşaqlarını hədəf alaraq bir kəndi bombalasalar və o kənd xalqını uşaqları ilə bərabər öldürsələr, Müsəlmanların da şəxsən onların uşaqlarını hədəf alaraq kafirlərin bir kəndini bombalaması və uşaqları ilə bərabər o kənd xalqını öldürməsi, şəri ruxsat ilə caizdir. Bu, ***"mukabele-i bi'l-misil kaide-i adilanesi"***nin bir gərəyidir.

~ **İkinci misal:** Kafirlər, Müsəlmanlara muslə etsələr, yəni onların gözlərini çıxarsalar, qulaqlarını kəssələr, başlarını yarsalar, Müsəlmanların da, onlara eyni şəkildə muslə edib mislilə qarşılıq verməsi, şəri ruxsat ilə caizdir.

d. Düşmənin etdiyi qeyr-i məşru təcavüzə mislindən artıq qarşılıq vermək isə, haramdır və buna, ***"mukabele-i bi'l-misil kaide-i zalimanesi"*** deyilir. Məsələn, kafirlər, Müsəlmanların olduğu bir kəndin muhariblərini deyil, şəxsən uşaqlarını hədəf alaraq o kəndi bombalayıb o kəndi xalqını uşaqları ilə bərabər öldürsələr, Müsəlmanların şəxsən onların uşaqlarını hədəf alaraq bir kəndi deyil, 10 kəndi bombalayıb uşaqları ilə bərabər o 10 kəndin xalqını qətl etmələri, daha artığı ilə qarşılıq vermək deməkdir. Bu isə, haramdır.

Bax Ustadın ***"mukabele-i bi'l-misil kaide-i zalimanesi"*** təbirindən muradı budur.

Bəli, zalımlar, ***"mukabele-i bi'l-misil"*** adı altında dəhşətli zülmlər işləyirlər. Məsələn, Müsəlmanlar tərəfindən onların bir əsgəri öldürülsə, buna qarşılıq kafirlərin Müsəlmanlardan bir əsgəri öldürmələri lazım gəldiyi halda, onlar, Müsəlmanların şəxsən uşaqlarını hədəf alaraq bir kəndi bombalamaq surətilə böyük bir zülm işləyirlər.

Həm məsələn, Müsəlmanlar tərəfindən onların bir kəndi mühasirə edilsə, buna qarşılıq, kafirlərin, Müsəlmanların bir kəndini bombalamaları lazım gəldiyi halda, onlar, Müsəlmanların şəxsən uşaqlarını hədəf alaraq 10 kəndi bombalamaq surətilə yenə şiddətli bir zülm işləyirlər və buna da, ***"mukabele-i bi'l-misil"*** deyirlər. Halbuki bu, mislilə qarşılıq vermək deyildir. Çünki bu, özünə rəva görülənə mislilə deyil, bəlkə 2, 3, hətta 10 misli artığı ilə qarşılıq verməkdir. Onlar, bu tərzdəki zalım qaydaya, hər nə qədər ***"mukabele-i bi'l-misil"*** desələr də, əslində bu, ***"mukabele-i bi'l-misil"*** deyil, əksinə ***"zalimane bir kaide"***dir.

Bax Ustadın ***"mukabele-i bi'l-misil kaide-i zalimane"***si sözünün mənası, zalımların ***"mukabele-i bi'l-misil"*** ünvanı altındakı bu dəhşətli zalım qaydaları deməkdir. Yəni, kafirlərdən öldürülən bir əsgərə müqabil, şəxsən uşaqları hədəf alaraq 10 kəndi yandırmaq kimi, mislindən artıq qarşılıq vermək, ***"zalimane bir kaide"***dir, deməkdir. Yoxsa Ustadın bu ifadəsindən murad, -haşa- *"Şəriətdə mislilə qarşılıq vermək yoxdur və düşmənin təcavüzünə mislilə qarşılıq vermək, zalım bir qaydadır."* demək deyildir.

Bəzi kimsələr, Ustadın istifadə etmiş olduğu ***"mukabele-i bi'l-misil kaide-i zalimanesi"*** təbirinə yalnış məna verərək və bu sözü bəhanə edərək, guya *"İslamda mislilə qarşılıq vermək yoxdur. Yəni kafirlər, Müsəlmanları vurduğunda, Müsəlmanların onlara mislilə qarşılıq vermələri haramdır."* deməkdədirlər. Məsələn, *"Kafirlər, Müsəlmanların uşaqlarını hədəf alaraq bir kəndi bombalayıb o kənd əhalisini öldürsələr və ya Müsəlmanlara muslə etsələr, Müsəlmanlar buna qarşılıq verə bilməzlər. Çünki mislilə qarşılıq vermək, zalım bir qaydadır."* deyə propoqanda etməkdə və, *"Hətta bir şəhərdə düşmən muharibləri olsa, şəxsən o muharibləri hədəf alaraq o şəhəri bombalamaq, caiz deyildir. Çünki onlarla bərabər, hərblərdə öldürülməsi haram olan qadın və uşaqlar da mövcuddur."* deyərək, şəriəti bilməyən bir qisim Müsəlmanları

bu şəkildə aldatmaqda və onları maddi cihaddan uzaqlaşdırmaqdadırlar. Beləcə, bu pis görüşlərinə, əziz Ustadı da alət etməkdədirlər.

Halbuki ***"mukabele-i bi'l-misil"*** qaydası, aşağıda izah ediləcəyi üzərə, əsasları etibarı ilə, Quran və sünnətdə olan adil bir qaydadır və yer üzündə ədalət və əmin-amanlığı təsis edəcək və fəsadı ortadan qaldırıb zalımların zülmünü əngəlləyəcək İlahi bir qanundur və muhtəviyyatı çox genişdir.

Belə bir misalla, Ustadın məzkur sözünü fəhmə yaxınlaşdıraq:

Məsələn, imanın bir xüsusiyyəti olan və Haqq Taala'nın, qullarına iman vasitəsilə ehsan etdiyi bir hədiyyə olan azadlıq, bəzi kimsələr tərəfindən mənası təhrif edilərək, *"Allaha qarşı azad olmaq, heç bir şəri əmrə itaət etmədən, heyvancasına yaşamaq"* mənasına bir zərf qılınmışdır. Belə bir azadlıq, küfrün məhz özü olduğu üçün, ona, *"hürriyyet denilen kaide-i kafirane"* ifadəsini istifadə etmək, doğrudur, münasibdir. Bu ifadə, əsla həqiqi mənasında, şəriətdə azadlığın olmadığı; və İslamın, həqiqi azadlığı rədd etdiyi mənasına gəlməz. Əksinə, həqiqi azadlığa, ancaq və ancaq şəriətin göstərdiyi və əmr etdiyi şəkildə çatılır. Kafirlərin dedikləri azadlıq isə, azadlıq deyil, qulların qullara və ya nəfslərinə əsir olmasıdır.

Eynilə bunun kimi, kafirlərin başa düşdükləri və tətbiq etdikləri ***"mukabele-i bi'l-misil"*** ki, onlardan bir əsgərin öldürülməsi səbəbilə Müsəlmanların uşaqlarını hədəf alaraq Müsəlmanların 10 kəndini yandırmaq və ya onların 10 kəndi yandırıldı deyə Müsəlmanların uşaqlarını hədəf alaraq Müsəlmanların 100 kəndini yandırmaq kimi mislilə deyil, qat-qat artığı ilə qarşılıq vermək deməkdir.

Bax bu qaydanı, ***"mukabele-i bi'l-misil kaide-yi zalimanesi"*** deyə təbir etmək, münasibdir və Ustad Nursi də, bu mənaya işarət üçün, bu təbiri istifadə etmişdir.

Xülasə: Fəqihlərin Quran və hədisə istinad edərək etdikləri təsbitə görə, hərbdə düşmənə qarşı 3 növ qarşılıq vardır:

• **Birincisi:** Əzimət olan mütləq ədalətdir, ki, düşmənin bütün muharib əsgərlərini və hərbə təşviq edənləri hədəf alaraq -və əgər ayırmaq da mümkün deyilsə, yanlarındakı uşaq, qadın və yaşlılardan kim varsa, onları da hədəf etmədən- vurmaqdır.

Məktubda zikr edilən bu mütləq ədalət, ***"yalnız vuranı vurmak"*** deyə təbir edilmişdir.

Lakin burda incə bir məqam daha vardır ki, Ustadın ifadələrində yer alan ***"vuran"*** kəliməsindən murad, ***"bütün muharib əsgərlər"*** deməkdir. Yoxsa ***"sadəcə vuran şəxs"*** mənasında deyildir.

• **İkincisi:** Şəri ruxsat olan ***"mislilə qarşılıq vermək olan adil qayda"***dır ki, düşmən, qeyr-i məşru bir surətdə, yəni Allahın hərblərdə qadağan etdiyi felləri işləmək surətilə Müsəlmanları nə şəkildə vurdularsa, ona mislilə qarşılıq verməkdir. Yəni əgər kafirlər, Müsəlmanların şəxsən uşaqlarını hədəf alaraq onların 1 kəndini bombalamaq surətilə o kənd əhalisini uşaqları ilə bərabər öldürsələr, Müsəlmanların da kafirlərin uşaqlarını hədəf alaraq onların 1 kəndini bombalamaq surətilə o kənd əhalisini uşaqları ilə bərabər öldürməsi; həm məsələn, kafirlər muslə etsələr, Müsəlmanların da onlara muslə etməsi kimi düşmənin qeyr-i məşru təcavüzlərinə mislilə qarşılıq vermək, ***"mukabele-i bi'l-misil kaide-i adilanesi"***dir. Belə qarşılıq vermək, şəriətdə vardır və caizdir.

• **Üçüncüsü:** Haram olan zalım qaydadır ki, düşmənin etdiyi qeyr-i məşru təcavüzə, mislindən artıq qarşılıq verməkdir. Məsələn, əgər kafirlər, Müsəlmanların uşaqlarını hədəf alaraq onların 1 kəndini bombalamaq surətilə o kənd əhalisini uşaqları ilə bərabər öldürsələr, Müsəlmanların buna qarşılıq kafirlərin uşaqlarını hədəf alaraq 1 kəndi deyil,

10 kəndi bombalamaq surətilə o kəndlərin əhalisini uşaqları ilə bərabər öldürməsi, daha artığı ilə qarşılıq verməkdir. Belə bir qarşılıq, zülmdür və haramdır.

Müsəlmanların belə bir zülmü və haramı işləmələri, düşünülə bilməz. Kafirlər isə, bunu, özlərinə bir qanun olaraq qəbul etmiş və yalnış olaraq buna, ***"mukabele-i bi'l-misil"*** demişlərdir. Həqiqətdə isə, bu qayda, ***"kaide-i zalimane"***dir. Burda Ustad Nursi (rahmətullahi aleyh), bu xüsusda, ***"mukabele-i bi'l-misil kaide-i zalimanesi"*** təbirini istifadə etmişdir. Yoxsa, *"Şəriətdə heç bir surətdə mislilə qarşılıq vermək yoxdur."* deməmişdir.

Məktuba yenidən nəzər salaq:

"Risale-i Nur'daki şefkat, vicdan hakikat, hak, bizi siyasetten men etmiş [əngəlləmişdir]. **Çünkü mâsumlar belâya düşerler; onlara zulmetmiş oluruz.»**

Bazı zâtlar, bunun izahını istediler. Ben de dedim:

Şimdiki fırtınalı asırda:

~ gaddar medeniyetten neş'et eden [doğan] **hodgâmlık** [eqoistlik]; **ve**

~ asabiyet-i unsuriye [irqçilik] **ve umumî harpten gelen istibdadat-ı askeriye** [əskəri istibdad, təzyiqlər]; **ve**

~ dalâletten çıkan merhametsizlik

cihetinde, öyle bir eşedd-i zulüm [zülmün ən şiddətlisi] **ve eşedd-i istibdadat** [istibdadın ən şiddətlisi] **meydan almış ki:**

~ Ehl-i hak [Allah qatında haqq olana özünü nisbət edənlər], **hakkını kuvvet-i maddiye** [maddi güc] **ile müdafaa etse, ya eşedd-i zulüm** [zülmün ən şiddətlisi] **ile, tarafgirlik bahanesiyle, çok bîçareleri**

yakacak; o hâlette [hallarda]**, o da azlem** [çox zalım] **olacak ve mağlûp kalacak. Çünkü, mezkûr** [yuxarıda zikr edilən] **hissiyatla hareket ve taarruz** [hücum] **eden insanlar, bir-iki adamın hatasıyla yirmi otuz adamı, âdi bahanelerle vurur, perişan eder.**

~ Eğer ehl-i hak, hak ve adalet yolunda yalnız vuranı vursa, otuz zayiata mukàbil, yalnız biri kazanır, mağlûp vaziyetinde kalır.

~ Eğer mukabele-i bilmisil kaide-i zâlimânesiyle [misli ilə qarşılıq vermək olan zalım qaydası ilə]**, o ehl-i hak dahi, bir-ikinin hatasıyla yirmi otuz biçareleri ezseler, o vakit, hak namına dehşetli bir haksızlık ederler.**

İşte, Kur›ân›ın emriyle, gayet şiddetle ve nefretle siyasetten ve idareye karışmaktan kaçındığımızın hakikî hikmeti ve sebebi, budur. Yoksa bizde öyle bir hak kuvveti var ki, hakkımızı tam ve mükemmel müdafaa edebilirdik."

Ustad, bu məktubunda niyə siyasətə girmədiyinin, yəni nə üçün silahlı mübarizə aparmadığının səbəbini izah etməkdə və belə deməkdədir:

Bu anda düşmən:

~ qəddar mədəniyyətdən gələn eqoistlik və irqçilik; və

~ ümumi hərbdən gələn əskəri istibdad; və

~ dəlalətdən gələn mərhəmətsizlik

səbəbilə, elə şiddətli zülmlə hərəkət edir ki, məsələn, bir adam səbəbilə, yüzlərlə məsumu öldürür; həm məsələn, düşmən onun 10 kəndini vursa, o da onun 100 kəndini və o kəndlərin əhalisi ilə bərabər öldürür. Buna maddi bir qarşılıq vermək isə, 3 surətdə olur:

• **Birincisi:** Ya haqq əhli, zalımların ***«mukabele-i bi'l-misil»*** adı altında tətbiq etdikləri ***«kaide-i zalimane»*** ilə düşməni vuracaq. Yəni,

düşmən 1 kəndi yandırsa və uşaqları hədəf edərək öldürsə, haqq əhli də, onların 10 kəndini yandıracaq və uşaqlarını hədəf edərək öldürəcək. Bu vəziyyətdə hər nə qədər düşmən məğlub olacaq, lakin haqq əhli, ondan daha zalım olacaq.

• **İkincisi:** Və yaxud haqq əhli, şəri ruxsat olan ***«mukabele-i bi'l-misil kaide-i adilanesi»*** ilə düşmənin təcavüzlərinə mislilə qarşılıq verəcəkdir. Yəni məsələn düşmən 1 kəndi yandırdı və uşaqları hədəf edərək öldürdü. Eynilə haqq əhli də 1 kəndi yandıracaq və uşaqları hədəf edərək öldürəcəkdir.

O vaxt, düşmən ***«kaide-i zalimane»*** ilə hərəkət etdiyi və əlində maddi imkanı da olduğu üçün, haqq əhlinin 1 vurduğuna, 2, 3, bəlkə 10 mislilə qarşılıq verəcək və uşaqlarını hədəf edərək öldürəcək. Bu surətdə də qələbə qazanmaq mümkün deyildir.

Bu ehtimalı Ustad Nursi məktubunda hazf edib **(Haşiyə)** zikr etməmiş, lakin cümlənin siyaq və sibaqından bu ehtimal başa düşülməkdədir.

• **Üçüncüsü:** Və yaxud əzimət olan mütləq ədalət ilə sadəcə vuranı vuracaq. O vaxt 30 tələfata qarşılıq, sadəcə biri qazanar. Çünki düşmən qat-qat zülm işləməkdə və haramlara riayət etməməkdədir. Bu surətdə qələbə qazanmaq da mümkün deyildir.

* * *

(Haşiyə:)

Hazf: söylənilməsi lazım gəlməyən sözün, ibarədə zikr edilməməsidir.

Məsələn, birini yola salarkən, «gülə-gülə...» deyirik. Bu, "gülə-gülə get" deməkdir. "Get" kəliməsinin hazfı, mənanın anlaşılmasına əngəl olmadığından, hazf edilmişdir.

Quranda da, bir çox hazf nümunələri vardır. Məsələn, surə başlarında bismillah, yəni "Allahın adı ilə" dediyimizdə, əslində cümlə, tam deyildir. Ancaq bundan, "Allahın adı ilə başlayıram." mənası asanlıqla anlaşıldığından, "başlayıram" qismi hazf edilmişdir.)